# Şəhid ömrü bir çiçəyə bənzəyir...

*Onun məsum baxışları, zərif gülüşləri vardı... Bu baxışlarla elə bil adama nəsə demək istəyirdi. Həmin baxışların sahibi olan sakit təbiətli, 18 yaşlı, yenicə gül açmış bu gənc Səbuhi Məcidovdur. Uşaqkən onu evdə "Səbiş" deyə çağırardılar. O Səbiş ki, ömrünün gənc çağında, qanlı-qadalı müharibənin ən qızğın vaxtında hərbi xidmətə çağırıldı. Yola düşərkən, ailə üzvləri ilə, qohum-dostları ilə halallaşıb getdi. Sanki şəhid olacağını bilirmiş kimi...*

Vətən yolunda canından, qanından keçdi Səbuhi. Yorulmadan, qorxmadan son nəfəsinə qədər torpaqlarımızın azadlığı uğrunda düşmənə qarşı vuruşdu, döyüşdü, lakin geri çəkilmədi...

**Qısa arayış:**

Məcidov Səbuhi Ağalətif oğlu 28 aprel 2002-ci ildə Abşeron rayonunun Aşağı Güzdək qəsəbəsində sadə bir ailədə dünyaya gəlib. 2008-ci ildə Səmidxan Əzizov adına Aşağı Güzdək qəsəbə tam orta məktəbinin 1-ci sinfinə daxil olub. Nizam-intizamı ilə seçilən Səbuhi müəllim və şagird kollektivinin hörmətini qazanmışdır. 2019-cu ildə orta məktəbi bitirdikdən sonra Səbuhi Məcidov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə yollanıb. O, xidməti borcunu Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində keçib. Vətənpərvərliyi, səmimiyyəti, nizam-intizamı, bacarığı ilə hərbçi yoldaşları arasında hörmət qazanmışdır Səbuhi...



Azərbaycan Ordusunun əsgəri olan Səbuhi Məcidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan 44 günlük Vətən müharibəsində iştirak etmişdir. O, Laçının, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə fədakarlıqla vuruşmuşdur.

Səbuhi Məcidov 29 sentyabr 2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirdiyi zaman şəhidlik zirvəsinə ucalmışdır. Onun nəşi Abşeron rayonunun Aşağı Güzdək qəsəbəsinə gətirilərək, Qobustan rayon qəbiristanlığında torpağa tapşırılmışdır.

Yaşadığı evdə şəhidin adına xatirə guşəsi yaradılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Səbuhi Məcidov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Səbuhi Məcidov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Azərbaycanın Tərtər rayonunun Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2021-ci il tarixli Sərəncamına əsasən Səbuhi Məcidov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Səbuhi kimi qəhrəman oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq və heç vaxt unudulmayacaq...

*Sən şəhid olsan da, ey Vətən oğlu,*
*Hamının qəlbində yaşayacaqsan.*
*Torpağın üstündə uludan ulu*
*Qəhrəman adını daşıyacaqsan!..*

Məkanın cənnət olsun, şəhidim!..

**Vəsidə Mustafaqızı,**
*yazıçı-jurnalist, "Qızıl qələm" media mükafatı laureatı.*